Azərbaycan Respublikası Vergilər Nazirliyinin il tarixli №-li Əmri ilə təsdiq edilmişdir

***Vaxtında təqdim edilməmiş bəyannamələr, hesabatlar və arayışlar ilə bağlı Qaydalar***

## *I. Ümumi müddəalar*

1.1. “Vaxtında təqdim edilməmiş bəyannamələr, hesabatlar və arayışlar ilə bağlı Qaydalar” (bundan sonra - Qaydalar) Azərbaycan Respublikasının Konstitusiyasının, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin, İnzibati Xətalar Məcəlləsinin, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununun, “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının 18 fevral 1997-ci il tarixli 250-IQ nömrəli Qanununun, “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 30 iyun 2017-ci il 765-VQ nömrəli Qanununun, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”nin, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”nin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyun 2015-ci il tarixli 211 nömrəli Qərarı ilə təsdiq edilmiş “Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası”nın, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlərin və digər normativ-hüquqi aktlarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Qaydalar aşağıdakıları əhatə edir:

1.2.1 Azərbaycan Respublikasının Vergi Məcəlləsi və digər normativ-hüquqi aktları ilə müəyyən edilmiş vergi bəyannamələri, məcburi dövlət sosial sığortası, işsizlikdən sığorta üzrə hesabatları (və digər hesabatları) vergi ödəyiciləri tərəfindən vergi orqanlarına vaxtında təqdim edilmədikdə vergi orqanları tərəfindən görülməli tədbirləri;

1.2.2 Vergi bəyannamələrini, məcburi dövlət sosial sığortası, işsizlikdən sığorta üzrə hesabatları (və digər hesabatları) vergi orqanına qanunvericiliklə müəyyən edilmiş müddətlərdə təqdim etməyən vergi ödəyicilərinə xəbərdarlıqların çatdırılmasını;

1.2.3 Vergi bəyannaməsini, məcburi dövlət sosial sığortası, işsizlikdən sığorta üzrə hesabatlarını (və digər hesabatları) və ya Vergi Məcəlləsinin 16.2-ci maddəsində nəzərdə tutulmuş arayışı əsas olmadan müəyyən edilmiş müddətdə təqdim etməyən vergi

ödəyicilərinə maliyyə sanksiyasının və ya qanunvericiliklə müəyyən edilmiş hallarda inzibati cərimənin tətbiq edilməsini;

1.2.4. Vergi bəyannaməsini, məcburi dövlət sosial sığortası, işsizlikdən sığorta üzrə hesabatlarını (və digər hesabatları) və ya Vergi Məcəlləsinin 16.2-ci maddəsində nəzərdə tutulmuş arayışı əsas olmadan müəyyən edilmiş müddətdə təqdim etməyən vergi ödəyicisi barəsində Vergi Məcəlləsinə uyğun olaraq qəbul edilmiş qərarın və ya inzibati xəta haqqında iş üzrə qərarın vergi ödəyicilərinə çatdırılmasını;

1.2.5. Vergi Məcəlləsinin 16.1.11-4-cü maddəsində göstərilən elektron hesabatı müəyyən edilmiş qaydada və müddətdə təqdim etməyən maliyyə institutlarına xəbərdarlıqların çatdırılmasını, həmin vergi ödəyicilərinə, eyni zamanda Vergi Məcəlləsinin 16.1.4-cü maddəsində nəzərdə tutulan arayışı vaxtında təqdim etməyən vergi ödəyicilərinə maliyyə sanksiyasının tətbiq edilməsini və məsuliyyət məsələsi ilə əlaqədar qəbul edilmiş qərarların vergi ödəyicilərinə təqdim edilməsini.

2. Qaydalarda nəzərdə tutulan prosedurlara nəzarət etmək, təhlillər aparmaq, habelə müvafiq məlumatları almaq məqsədilə "Axtarış və Hesabat" informasiya sistemində mövcud olan hesabatlardan istifadə edilir.

## *II. Bəyannamələri, hesabatları və arayışları vergi ödəyiciləri tərəfindən vaxtında təqdim edilmədikdə vergi orqanları tərəfindən görülməli tədbirlər*

2.1 Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 72-ci maddəsinə əsasən vergi ödəyicisinin vergi hesabatı vergi bəyannaməsindən ibarətdir.

2.2. Vergi Məcəlləsinin 72.2-ci maddəsinə əsasən bu Məcəlləyə və ona müvafiq olaraq qəbul edilmiş qanunlara uyğun olaraq vergi hesabatını verməyə borclu olan vergi ödəyiciləri vergi hesabatını bu Məcəllədə göstərilən müddətlərdə Vergilər Nazirliyinin müəyyənləşdirdiyi formada və yerdə vergi orqanına verməlidirlər.

2.3. Vergi Məcəlləsinin 16.1.11-4-cü maddəsinə əsasən maliyyə institutları Vergi Məcəlləsinin 76-1-ci maddəsinə uyğun olaraq maliyyə institutları tərəfindən təqdim edilməsi nəzərdə tutulan məlumatların əks olunduğu forması Vergilər Nazirliyi tərəfindən təsdiq edilən elektron hesabatları təqdim etməlidirlər.

Vergi Məcəlləsinin 16.1.4-cü maddəsinə əsasən vergi ödəyiciləri hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanlarına Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada, auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə auditor rəyi əlavə edilməklə, vergi hesabatını, habelə bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən hər bir şəxs üzrə transfer qiymətləri əsas götürülməklə ümumi dəyəri 500.000 manatdan artıq

olan əməliyyatlara dair arayışı Vergilər Nazirliyinin müəyyən etdiyi formada təqdim etməlidirlər.

2.4. Məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqqının düzgün hesablanmasına nəzarəti vergi orqanları həyata keçirirlər. Vergi orqanları bu nəzarəti sığortaedənlərin uçotunu aparmaqla, uçot və hesabat məlumatlarını yoxlamaqla həyata keçirirlər. Məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə hesabatların vergi orqanına təqdim edilməsi sığortaedənlərin vəzifəsidir.

2.5. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununun 8-ci maddəsinə əsasən sığortaedənlər Azərbaycan Respublikasında fəaliyyət göstərən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının və ya xarici dövlətin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxs statusunda olan müəssisə, idarə və təşkilatlar, onların filial və nümayəndəlikləri, seçkili orqanlar, dövlət orqanları, habelə özünü və ya başqasını sosial sığorta edən digər şəxslərdir.

Həmin Qanunun 10-cu maddəsinə əsasən isə sosial sığorta haqlarının uçotunu aparmaq və hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq bu barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada Vergilər Nazirliyinə hesabat və ya hesabat əvəzinə hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq fəaliyyətin olmaması barədə arayış təqdim etmək sığortaedənlərin vəzifəsidir.

2.6. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununun 6.2.11.-ci maddəsinə əsasən sığorta haqqının hesablanmasının uçotunu aparmaq və hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq bu barədə Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada Vergilər Nazirliyinə hesabat təqdim etmək, habelə sığorta ödənişi üçün əsas olan sənədlərin və məlumatların qorunub saxlanmasını təmin etmək sığortaedənin vəzifələrinə aid edilmişdir.

2.7. Vergi Məcəlləsinin 72.3-cü maddəsinə əsasən vergi hesabatını vergi ödəyicisi, yaxud onun qanunvericiliklə müəyyən olunmuş qaydada vəkil edilmiş nümayəndəsi imzalamalıdır.

Vergi Məcəlləsinin 72.4-cü maddəsinə əsasən qanunvericiliyə müvafiq olaraq vergi ödəyicisinin vergi hesabatının tərtib edilməsində müstəqil auditor iştirak edirsə, o, vergi hesabatını imzalamalı, möhür vurmalı və öz vergi ödəyicisinin eyniləşdirmə nömrəsini (VÖEN-ni) göstərməlidir. Hesabatı bir nəfərdən çox tərtibatçı hazırlayırsa, onu ancaq baş tərtibatçı imzalayır.

2.8. Vergi Məcəlləsində və digər aidiyyəti normativ hüquqi aktlarda vergi bəyannamələrinin (hesabatlarının, arayışların) vergi orqanına təqdim edilməsi müddətləri aşağıdakı kimi müəyyən edilmişdir:

Vergi Məcəlləsinin 124.1-ci maddəsinə əsasən daşınan və daşınmaz əmlak üçün icarə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə, icarəyə verən bu maddəyə uyğun olaraq vergini özü ödəyir və Vergi Məcəlləsinin 33-cü və 149-cu maddələrinə uyğun olaraq vergi uçotuna alınıb bəyannamə verməlidir.

Vergi Məcəlləsinin 149.2-ci maddəsinə əsasən Məcəllənin 149.1-ci maddəsində göstərilən şəxslər (rezident müəssisələr, sahibkarlıq fəaliyyətindən gəlir əldə edən qeyri-kommersiya təşkilatları, Azərbaycan Respublikasında daimi nümayəndəliyi olan qeyri-rezidentlər, vergiyə cəlb olunan gəliri Azərbaycan Respublikasının mənbəyindən olan və bu gəlirdən ödəmə yerində vergi tutulmayan qeyri-rezidentlər və həmin qeyri-rezident şəxsin təyin etdiyi vergi agenti, ödəmə mənbəyində vergiyə cəlb olunması nəzərdə tutulmayan (tutulması mümkün olmayan) gəlirləri olan fiziki şəxslər, yaxud Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir, o cümlədən royaltidən gəlir əldə edən rezident fiziki şəxslər) müvafiq olaraq mənfəət və ya gəlir vergisi bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq təqdim edirlər.

Vergi Məcəlləsinin 149.2-ci maddəsinə əsasən xüsusi notariuslar hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına gəlir vergisi bəyannaməsi verməlidirlər.

Vergi Məcəlləsinin 149.3-cü maddəsinə əsasən vergi ödəyicisi Azərbaycan Respublikasında fəaliyyətini dayandırdıqda, habelə vergi ödəyicisi olan fiziki şəxsin fəaliyyətinə xitam verildikdə 30 gün müddətində vergi orqanlarına bəyannamə verməlidir. Bu maddənin məqsədləri üçün hesabat dövrü vergi ilinin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı və ya fiziki şəxsin fəaliyyətinə xitam verildiyi günə qədər olan dövrü əhatə edir.

Vergi Məcəlləsinin 149.4-cü maddəsinə əsasən hüquqi şəxs və ya qeyri-rezidentin daimi nümayəndəliyi ləğv edildikdə, ləğvetmə komissiyası və ya vergi ödəyicisi bu barədə qanunvericiliklə müəyyən edilmiş qaydada vergi orqanına məlumat verməlidir. Hüquqi şəxsin ləğv edilməsi haqqında qərarda göstərilən ləğvolunma tarixindən, qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə isə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələrində) leqallaşdırıldığı tarixindən sonra 30 gün ərzində ləğvetmə komissiyası vergi orqanına bəyannamə verməyə borcludur.

Vergi Məcəlləsinin 150.3.3-cü maddəsinə əsasən ödəmə mənbəyində vergi tutan dövlət sosial təminat sistemi vasitəsilə ödənilən pensiyalar istisna edilməklə, digər şəxslərə pensiya

ödəyən hüquqi şəxslər və ya sahibkarlar, hüquqi və fiziki şəxslərə dividend ödəyən rezident hüquqi şəxslər, hüquqi və fiziki şəxslərə faizlər ödəyən hüquqi şəxslər və ya sahibkarlar, Vergi Məcəlləsinin 124-cü, 125-ci və ya 126-cı maddələrində nəzərdə tutulan ödəmələr verən hüquqi şəxslər və ya sahibkarlar, vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərin göstərdiyi xidmətlərə (işlərə) görə həmin fiziki şəxslərə haqq ödəyən hüquqi şəxslər və ya fərdi sahibkarlar və Vergi Məcəlləsinin 116.2-ci maddəsində nəzərdə tutulan sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, 150.1.1 və 150.1.2-ci maddələrinə uyğun olaraq ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri olan, muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər, sahibkarlar və xüsusi notariuslar hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq vergi orqanına bəyannamə verməyə borcludurlar.

Vergi Məcəlləsinin 150.3-1-ci, 150.3-2-ci və 150.3-3-cü maddələrinə əsasən bu Məcəllənin 150.1.9-150.1.13-cü maddələrinə uyğun olaraq ödəmə mənbəyində vergi tutan vergi ödəyiciləri hesabat ayı başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq ödəmə mənbəyində tutulan vergilər barədə Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada bəyannaməni vergi orqanına verməyə borcludur.

Vergi Məcəlləsinin 150.3-4-cü maddəsinə əsasən bu Məcəllənin 150.1.14-cü maddəsində göstərilən vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan fiziki şəxslərə "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununun 3.5-ci maddəsində göstərilən malların təqdim edilməsinə görə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada bəyannaməni verməyə borcludurlar.

ƏDV ödəyiciləri və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla bu Məcəllənin 150.1.1 və 150.1.2 maddələrinə uyğun olaraq ödəmə mənbəyində vergi tutan muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər, sahibkarlar və xüsusi notariuslar rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq ödəmə mənbəyində tutulan vergilər barədə vergi orqanına bəyannamə verməyə borcludurlar.

Vergi Məcəlləsinin 169.5-ci maddəsinə əsasən vergi agenti ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməmişdirsə, o hesablanan vergini qeyri-rezidentə ödəmə verildikdən sonra 7 gün ərzində ödəməyə və növbəti ayın 20-dək Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada ƏDV bəyannaməsi verməyə borcludur.

Vergi agenti ƏDV məqsədləri üçün qeydiyyatdan keçdiyi hallarda o, Vergi Məcəlləsinin 169.7-ci maddəsinə əsasən qeyri-rezidentə ödəmə verilən aydan sonrakı ayın 20-dən gec

olmayaraq ƏDV-nin hesablanması barədə vergi orqanına Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada bəyannamə təqdim etməlidir.

Vergi Məcəlləsinin 177.2-ci maddəsinə əsasən əlavə dəyər vergisinin (ƏDV) bəyannaməsi vergi orqanına vergi ödəyicisi tərəfindən hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq təqdim edilir.

Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, ƏDV bəyannaməsi bu Məcəllədə nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

Vergi Məcəlləsinin 192.1-ci maddəsinə əsasən aksiz bəyannaməsi aksizin ödəyiciləri tərəfindən bu Məcəllənin 191.1-ci maddəsində nəzərdə tutulduğu hallarda hər ay üçün həmin aydan sonrakı ayın 20-dən gec olmayaraq təqdim edilir.

Vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxsin fəaliyyətinə xitam verildikdə, aksiz bəyannaməsi bu Məcəllədə nəzərdə tutulmuş müddətdən gec olmamaq şərti ilə 30 gün müddətində vergi orqanına təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

Vergi Məcəlləsinin 201.5-ci maddəsinə əsasən vergi ödəyicisi olan müəssisələr əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edirlər.

Vergi ödəyicisi olan hüquqi şəxs onun ləğv edilməsi haqqında qərarın qəbul edilməsi tarixindən, qeyri-rezidentin daimi nümayəndəliyi üçün bu tarix göstərilmədikdə isə qərarın Azərbaycan Respublikasının xarici dövlətlərdəki nümayəndəlikləri (Azərbaycan Respublikasının mənafeyini təmsil edən digər ölkənin konsulluq idarələrində) leqallaşdırıldığı tarixindən sonra 30 gün müddətində vergi orqanına əmlak vergisinin bəyannaməsini verməlidir və bu halda hesabat dövrü vergi ilinin əvvəlindən vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini dayandırdığı günə qədər olan dövrü əhatə edir.

Vergi Məcəlləsinin 208.2-ci maddəsinə əsasən müəssisələr torpaq vergisini illik olaraq hesablayır və hər il may ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına bəyannamə təqdim edirlər.

Vergi Məcəlləsinin 212.3-cü maddəsinə əsasən Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan şəxslər yol

vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq, Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə yol vergisi bəyannməsini vergi orqanına təqdim edirlər.

Vergi Məcəlləsinin 217.3-cü maddəsinə əsasən mədən vergisinin ödəyiciləri mədən vergisi bəyannaməsini hesabat ayı üçün həmin aydan sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına, yerli büdcələrə daxil olan mədən vergisi üzrə isə mədən vergisi bəyannaməsini müvafiq bələdiyyələrə təqdim edirlər.

Vergi Məcəlləsinin 221.3-cü maddəsinə əsasən sadələşdirilmiş verginin ödəyiciləri tərəfindən hər rüb üçün rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına sadələşdirilmiş vergi üzrə bəyannamə təqdim edilir.

Vergi ödəyicisi fəaliyətini dayandırdıqda, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildikdə və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildikdə, bu Məcəllədə müəyyən olunmuş müddətdən gec olmamaq şərtilə vergi orqanına bəyannamə təqdim edilməlidir. Bu zaman vergi dövrü hesabat dövrü sayılan müddətin əvvəlindən vergi ödəyicisi fəaliyyətini dayandırdığı, habelə vergi ödəyicisi olan hüquqi şəxs ləğv edildiyi və ya fərdi sahibkarın fəaliyyətinə xitam verildiyi günə qədər olan dövrü əhatə edir.

Vergi Məcəlləsinin 221.4.5-ci maddəsinə əsasən avtomobil nəqliyyatı vasitəsi ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri Vergi Məcəlləsində başqa hallar nəzərdə tutulmamışdırsa, bu fəaliyyətə görə vergi orqanına bəyannamə vermirlər.

Vergi Məcəlləsinin 221.5-ci maddəsinə əsasən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər hər bir tikinti sahəsi üçün sadələşdirilmiş vergini tikintinin təməl işlərinin başlandığı rübdən hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə bəyannamə təqdim edirlər.

Vergi Məcəlləsinin 221.8.3-cü maddəsinə əsasən 218.4.4-cü maddədə göstərilən və aylıq sabit vergi məbləğində ödəyən fiziki şəxslər bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə vermirlər.

2.9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 iyun 2015-ci il tarixli 211 nömrəli Qərarı ilə təsdiq edilmiş “Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi Hədləri və Qaydası”na əsasən xarici dövlətlərlə bağlanılan müvafiq beynəlxalq müqavilələrə uyğun olaraq hesabat verilməli maliyyə əməliyyatları barədə məlumatlar hesabat verən maliyyə institutları tərəfindən beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş müddətlərdə, lakin məlumatların aid olduğu təqvim ili başa çatdıqdan sonrakı ilin 1 iyul tarixindən gec olmayaraq təqdim edilir.

Vergi Məcəlləsinin 16.1.4-cü maddəsinə əsasən vergi orqanlarına hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada, auditor tərəfindən yoxlanılması nəzərdə tutulduğu hallarda isə auditor rəyi əlavə edilməklə, vergi hesabatını, habelə bu Məcəllənin 14-1.2-ci maddəsində göstərilən hər bir şəxs üzrə transfer qiymətləri əsas götürülməklə ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara dair Vergilər Nazirliyinin müəyyən etdiyi formada arayış təqdim edilir.

2.10. “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.7-ci maddəsinə əsasən dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada hesabat təqdim etməlidirlər. Dövlət rüsumu üzrə hesabat dövrü rübdür.

Dövlət büdcəsi haqqında hər il üzrə qəbul edilən qanunda Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə 30 faiz həcmində yığım müəyyən edilir. Yığım üzrə hesabat dövrü təqvim ayı sayılır. Yığım hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilir və yığımı həyata keçirən təşkilatlar tərəfindən Vergilər Nazirliyinə hesabat təqdim edilir. Yığımların vaxtında ödənilməməsinə, azaldılmasına, yayındırılmasına və hesabatın müəyyən edilmiş müddətdə təqdim edilməməsinə görə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq faizlər hesablanır və ya maliyyə sanksiyası tətbiq edilir.

2.11. Vergi Məcəlləsinin 2.5-ci maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə vergilər haqqında bu Məcəllə ilə və ona müvafiq olaraq qəbul edilmiş normativ-hüquqi aktlarla nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq edilir.

Vergi Məcəlləsinin 2.7-ci maddəsinə əsasən bu Məcəllə qüvvəyə minənədək və ya o, qüvvəyə mindikdən sonra qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlərdə və ya qanunlarda, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlarda bu Məcəllədə və vergilər haqqında digər normativ-hüquqi aktlarda nəzərdə tutulmuş müddəalardan fərqli müddəalar müəyyən edildikdə, həmin sazişlərin və ya qanunların müddəaları tətbiq edilir.

Vergi Məcəlləsinin 4.5-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq xüsusi vergi rejimi tətbiq edilə bilər.

Xüsusi vergi rejimi dedikdə, müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası nəzərdə tutulur.

Xüsusi vergi rejimli vergi ödəyiciləri tərəfindən hesabatların təqdim edilmə müddətləri beynəlxalq muqavilələr, sazişlər və ya digər normativ hüquqi aktlar əsasında müəyyənləşdirilir.

Beynəlxalq müqavilələrin, sazişlərin və ya digər normativ hüquqi aktların müddəalarında nəzərdə tutulduğu halda xüsusi vergi rejimli vergi ödəyiciləri ƏDV məqsədləri üçün qeydiyyatdan keçmirlər və əlavə dəyər vergisi bəyannaməsini rüblük təqdim edə bilərlər.

2.12. Məcburi dövlət sosial sığortası və işsizlikdən sığorta üzrə hesabatı verməli olan şəxslər hər rüb hesablanmış və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı və işsizlikdən sığorta haqqı barədə hesabat təqdim edirlər. Hər rüb üçün hesabat həmin rübdən sonra gələn birinci ayın 20-dən gec olmayaraq və hər rüb üçün ayrı-ayrılıqda vergi orqanına təqdim edilməlidir.

2.13. Vergi Məcəlləsinin 16.2-ci maddəsinə əsasən vergi ödəyicisinin hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda vergi orqanına vergi hesabatının əvəzinə, hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş müddətdən gec olmayaraq arayış təqdim edilir.

2.14. Vergi Məcəlləsinin 16.3-cü maddəsinə əsasən vergi ilində vergi ödəyicisi sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdıqda, həmin fəaliyyətin və ya əməliyyatların dayandırılması günündən gec olmayaraq vergi orqanına müvafiq arayış təqdim etməlidir. Arayışda sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatların dayandırılmasının müddəti göstərilməlidir.

Vergi ödəyicisi sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrdə faktiki olaraq fəaliyyət göstərməsi müəyyən edildikdə vergi ödəyicisinə bildiriş göndərilməklə sahibkarlıq fəaliyyətini və ya digər vergi tutulan əməliyyatlarını müvəqqəti dayandırdığı dövrlər üzrə vergi orqanına hesabatlar təqdim edilməsi tələb olunur.

2.15. Vergi Məcəlləsinin 16.4-cü maddəsinə əsasən bu Məcəllənin 16.2 və 16.3-cü maddələrində göstərilən arayışları təqdim edən vergi ödəyicilərinin əmlakı və (və ya) torpağı olduqda əmlak və (və ya) torpaq vergisinin hesabatları bu Məcəllə ilə müəyyən olunmuş qaydada və müddətlərdə vergi orqanına təqdim edilməlidir.

Vergi Məcəlləsinin 16.5-ci maddəsinə əsasən bu Məcəllənin 16.2 və 16.3-cü maddələrində nəzərdə tutulan arayışlar vergi hesabatlarının verilməsi üzrə öhdəlik yarandığı gündən qüvvəsini itirir.

2.16. Vergi Məcəlləsinin 68.2-ci maddəsinə əsasən hər hansı müddət bu Məcəllədə göstərilən dövrün sonuncu gününün axırında bitir. Bu Məcəllədə nəzərdə tutulan hər hansı müddət qeyri-iş gününə təsadüf edərsə, həmin müddət onun ardınca gələn ən yaxın növbəti iş gününə keçir.

2.17. Vergi ödəyiciləri tərəfindən bəyannamələr, hesabatlar və arayışlar onların uçotda olduqları vergi orqanına qanunvericiliklə nəzərdə tutulan müddətlərdən gec olmayaraq təqdim edilməlidir. Bu müddətlərdə təqdim edilməyən bəyannamələr, hesabatlar və arayışlar təqdim edilməmiş hesab edildiyi üçün vergi orqanları tərəfindən vergi və inzibati qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görülür.

Bəyannamələr, hesabatlar və arayışlar vergi orqanına şəxsən və ya onların təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya müvafiq qanunvericiliyə uyğun olaraq elektron sənəd formasında göndərilməsi də daxil olmaqla) təqdim edilə bilər.

2.18. Bəyannamələr, hesabat və arayışların təqdim edilməsi üçün Vergi Məcəlləsi və ya digər normativ-hüquqi aktlarla (xüsusi vergi rejimi üzrə beynəlxalq müqavilələr, sazişlər və s.) müəyyən edilmiş müddət qurtardıqdan 5 gün sonra vaxtında təqdim edilməyən bəyannamələrin, hesabatların və arayışların siyahısı AVİS-də Borclar modulunun “Bəyannamələrini (hesabatları və arayışları) təqdim etməyən vergi ödəyiciləri üzrə xəbərdarlıq verilməlilər” və “Xüsusi vergi rejimli müəssisələr üzrə xəbərdarlıq verilməlilər” ekranında əks olunur.

Təqdim edilməyən bəyannamələr, hesabatlar və arayışların alınması ilə məşğul olan struktur şöbənin (bölmənin) rəhbəri həmin siyahını bölmənin işçiləri arasında işçilərin iş bölgüsünə uyğun olaraq bölməklə bəyannamələrini, hesabat və ya arayışları təqdim etməyən vergi ödəyicilərinə bu Qaydalara Əlavə 1, 2, 3 və 4-ə uyğun olaraq barədə xəbərdarlıqların göndərilməsi üçün müvafiq tədbirlərin görülməsini tapşırır.

Xəbərdarlıq məktubunda vergi orqanının adı, vergi ödəyicisi fiziki şəxsin adı, soyadı, atasının adı, VÖEN-i, hüquqi şəxsin adı, VÖEN-i, ünvanı, hüquqi şəxsin rəhbərinin adı, soyadı, atasının adı, təqdim edilməmiş bəyannamənin adı, dövrü və bəyannamənin Vergi Məcəlləsinə əsasən təqdim edilməli olduğu son tarixi göstərilir.

Xəbərdarlıq məktubunda həmçinin vergi ödəyicisindən bəyannamənin təcili olaraq təqdim olunması tələb edilir, əks halda Vergi Məcəlləsinin 38.3.1-ci və 83-cü maddələrinə müvafiq olaraq növbədənkənar səyyar vergi yoxlaması keçiriləcəyi və ya əlaqəli məlumatlar əsasında vergi hesablanacağı, habelə məsuliyyət məsələsinə baxılması ilə əlaqədar 10 gün müddətində vergi orqanına özünün və ya səlahiyyətli nümayəndəsinin dəvət edilməsi, üzürsüz səbəbdən iştirak etməyəcəyi təqdirdə məsuliyyət məsələsinə onun iştirakı olmadan baxılacağı bildirilir.

Xüsusi vergi rejimli müəssisələrə və dövlət rüsumu üzrə hesabat verməyən ödəyicilərə göndərilən xəbərdarlıq məktubunda Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə əsasən inzibati məsuliyyət daşıdığı qeyd edilir.

Xarici dövlətlərlə bağlanılan müvafiq beynəlxalq müqavilələrə uyğun olaraq hesabat verilməli maliyyə əməliyyatları barədə məlumatları əks etdirən elektron hesabatı müəyyən edilmiş müddətdə təqdim etməyən maliyyə institutlarına xəbərdarlıq məktubu göndərilir (Əlavə 8).

2.19. Xəbərdarlığın hazırlanması üçün təqdim edilməyən bəyannamələr, hesabatlar və arayışların alınması ilə məşğul olan struktur şöbənin (bölmənin) işçisi "Borc" modulunda "Bəyannamələrini (hesabatları və arayışları) təqdim etməyən vergi ödəyiciləri üzrə xəbərdarlıq verilməlilər" hissəsinə daxil olur.

"Bəyannamələrini (hesabatları və arayışları) təqdim etməyən vergi ödəyiciləri üzrə xəbərdarlıq verilməlilər" hissəsindən xəbərdarlıq verilməli vergi ödəyicilərinin siyahısı müəyyən edilərək şöbə (bölmə) rəhbəri tərəfindən imzalanması üçün vergi orqanının rəhbərinə (müavininə) göndərilir.

Vergi orqanının rəhbəri (müavini) "İmzalama" əməliyyatını apardıqdan sonra xəbərdarlıqları poçt edilməsi və vergi ödəyicilərinə çatdırılması üçün Sənədlərlə iş və vətəndaş müraciətlərinə baxılması şöbəsinə (bölməsinə) göndərir.

Maliyyə əməliyyatları barədə məlumatları əks etdirən elektron hesabat təqdim etməyən maliyyə institutlarına göndərilən xəbərdarlıqlar .AVİS proqram təminatı vasitəsi ilə Vergilər Nazirliyinin beynəlxalq vergitutma və vergi monitorinqi sahəsində nəzarəti həyata keçirən struktur vahidinin işçisi tərəfindən hazırlanır və şöbə rəhbərinə vizaya verilir. Şöbə rəhbəri tərəfindən həmin xəbərdarlıqlar vizaya qəbul edildikdən sonra həmin strukturun idarə direktoruna (müavininə) vizaya verilir. İdarə direktoru (müavini) tərəfindən xəbərdarlıqlar vizaya qəbul edildikdən sonra imzalanması üçün müvafiq strukturun baş direktoruna göndərilir.

Bu Qaydaların 2.18. və 2.19-cu maddələrində göstərilən əməliyyatlar 2 iş günü ərzində başa çatdırılmalıdır.

2.20. Sənədlərlə iş və vətəndaş müraciətlərinə baxılması şöbəsi (bölməsi) tərəfindən 2 iş günü ərzində xəbərdarlıqlar çap olunaraq vergi ödəyicisinə göndərilir və yaranmış borcların alınmasına dair prosedurları tənzimləyən Vergilər Nazirliyinin müvafiq normativ aktında nəzərdə tutulmuş formada icraat vərəqəsi açılır.

İcraat vərəqələr açıldığı gün təqdim edilməyən bəyannamələr, hesabatlar və arayışlar ilə məşğul olan struktur şöbənin (bölmənin) rəhbəri tərəfindən 1 iş günündən gec olmayaraq icraat vərəqələri əməkdaşlar arasında bölüşdürülür.

İcraat vərəqələrinin işçilər arasında bölgüsü AVİS proqram təminatında "Borclar" modulunda həyata keçirilir.

Təqdim edilməmiş bəyannamələr, hesabatlar və arayışlar üzrə icraat vərəqələrinin struktur bölmənin işçiləri arasında bölüşdürülməsi iş həcminin bərabərliyi prinsipi əsasında həyata keçirilir. Bununla belə işçilərin əməyindən və vaxtından səmərəli istifadə edilməsi məqsədi ilə ərazi prinsipi gözlənilə bilər.

Müəyyən səbəblərdən (işdən çıxma, məzuniyyət, ezamiyyə, uzun müddətli xəstəlik və s.) asılı olaraq bir işçiyə bölüşdürülmüş icraat vərəqləri zərurət yarandıqda digər işçilər arasında bölüşdürülməlidir.

İcraat vərəqələrinin yenidən bölgüsü səbəblər göstərilməklə vergi orqanının rəhbərinin adına müvafiq struktur şöbənin (bölmənin) rəhbəri tərəfindən yazılmış və vergi orqanının rəhbəri (müavini) tərəfindən imzalanmış xidməti məlumat əsasında həyata keçirilir.

2.21. Vergi Məcəlləsinin 37.4-cü maddəsinə əsasən kameral vergi yoxlaması aparmaq üçün vergi bəyannaməsi, sənədlər və məlumatlar üzrlü əsas olmadan təqdim edilmədikdə, vergi orqanının Vergi Məcəlləsinin 67-ci maddəsinə müvafiq olaraq vergiləri hesablamaq hüququ vardır.

Təqdim edilməyən bəyannamənin təqdim edilməsi barədə Xəbərdarlıq göndərildikdən 10 gün sonra müvafiq şöbə (bölmə) tərəfindən həmin vergi ödəyiciləri üzrə ödənilməli olan verginin məbləğini əlaqəli məlumatlardan istifadə etməklə hesablanılması üçün həmin vergi ödəyicilərinin siyahısı aidiyyəti üzrə bəyannamələr strukturuna təqdim edilir.

Bu məqsədlə struktur bölmənin (şöbənin) işçisi “Borc” modulunda “Vaxtından gec təqdim olunan bəyannamələr üzrə maliyyə sanksiyası hesablanması” hissəsinə daxil olur və “Bəyannamə strukturuna göndərilməlilər” menyusu vasitəsi ilə həmin vergi ödəyicilərinin siyahısı müəyyən edilir.

Bundan sonra seçilmiş vergi ödəyiciləri üzrə “Bəyannamələr strukturuna müraciət et” əməliyyatı aparılır. Bu əməliyyatdan sonra şöbənin (bölmənin**)** işçisi “Kargüzarlıq” modulunun “Sənədlərim” bölməsində avtomatik olaraq hazırlanmış xidməti məktublar vergi orqanının rəhbərinin (müavinin) dərkənarı əsasında aidiyyəti üzrə bəyannamələr strukturuna göndərilir.

2.22. Bəyannamələrin (hesabatların) təqdim edilməsi barədə Xəbərdarlıq göndərildikdən 10 gün sonra həmin vergi ödəyicilərinin siyahısı Vergi Məcəlləsinin 38.3.1-ci maddəsinə əsasən növbədənkənar səyyar vergi yoxlaması təyin edilməsində istifadə olunması məqsədilə aidiyyəti struktura təqdim edilir.

Bu məqsədlə struktur bölmənin (şöbənin) işçisi “Borc” “Vaxtından gec təqdim olunan bəyannamələr üzrə maliyyə sanksiyası hesablanması” hissəsinə daxil olur və “Audit strukturuna göndərilməlilər” menyusu vasitəsi ilə həmin vergi ödəyicilərinin siyahısı müəyyən edilir.

Bundan sonra seçilmiş vergi ödəyiciləri üzrə “Audit strukturuna müraciət et” əməliyyatı aparılır. Bu əməliyyatdan sonra şöbənin (bölmənin) işçisi “Kargüzarlıq” modulunun “Sənədlərim” bölməsində avtomatik olaraq hazırlanmış xidməti məktublar vergi orqanının rəhbərinin (müavinin) dərkənarı əsasında aidiyyəti üzrə audit strukturuna göndərilir.

2.23. Vergi ödəyicisinin fəaliyyət növü ilə faktiki mükəlləfiyyətləri arasında uyğunsuzluq aşkar edildikdə və bununla əlaqədar vergi ödəyicisi tərəfindən bəyannamə təqdim edilmədikdə qeyd olunan uyğunsuzluğun aradan qaldırılması məqsədilə aidiyyəti üzrə uçot strukturuna müraciət olunur.

## III. Mənfəət və gəlir vergisi hesabatının (bəyannaməsinin) verilmə müddətinin uzadılmasının proseduru

3.1. Vergi Məcəlləsinin 74-cü maddəsinə əsasən hüquqi şəxslərin mənfəət vergisinin və fiziki şəxslərin gəlir vergisinin hesabatının (bəyannaməsinin) vergi orqanına təqdim edilməsi müddəti üç ayadək uzadıla bilər. Vergi ödəyicisi hesabatın (bəyannamənin) verilməsi müddəti başa çatanadək həmin hesabatın (bəyannamənin) verilməsi müddətinin uzadılması barədə vergi orqanına rəsmi müraciət edərsə və eyni zamanda ödənilməli olan verginin məbləğini dövlət büdcəsinə tamamilə ödəyərsə, həmin hesabatın (bəyannamənin) verilməsi müddəti üç ayadək uzadılmış hesab olunur.

Hesabatın vergi orqanına təqdim edilməsi müddətinin yuxarıda göstərilən qaydada uzadılması verginin büdcəyə ödənilməsi müddətini dəyişdirmir.

3.2 Hesabat üzrə hesablanmış verginin məbləği ödənilmiş məbləğdən artıq olduqda yaranmış fərq verginin ödənilməsinin son müddəti günündən hesablanan faizlər nəzərə alınmaqla büdcəyə ödənilməlidir.

3.3. Hesabatın verilmə müddətinin uzadılması üçün müraciət etmiş vergi ödəyicilərinin qeydiyyatı AVİS-də “Bəyannamə təqdim etmə müddətinin uzadılması ” alt modulunda aparılır.

3.4. Vergi ödəyicisi hesabatın (bəyannamənin) verilmə müddətinin uzadılması ilə əlaqədar müraciət edirsə, həmin ödəyicinin ərizəsi (müraciəti) “Kargüzarlıq” alt sistemində “Bəyannamənin təqdim edilmə müddətinin uzadılması” ərizəsi kimi qeydiyyata alınmalıdır.

Vergi ödəyicisinin ərizəsi (müraciəti) müvafiq qaydada qeydiyyata alındıqdan sonra vergi orqanının rəhbəri (müavini) tərəfindən baxılması üçün təqdim edilməyən bəyannamələr, hesabatlar və arayışların alınması ilə məşğul olan struktur şöbəyə (bölməyə) göndərilir.

Qeyd edilən strukturun işçisi tərəfindən vergi ödəyicisinin məlumatları AVİS-də Borclar modulunun “Bəyannamə təqdim etmə müddətinin uzadılması ” menyusuna daxil edilir.

3.5. Vergi ödəyicisinin hesabatın (bəyannamənin) təqdim edilmə müddətinin uzadılması barədə müraciətinin Vergi Məcəlləsinin 74-cü maddəsinin müddəalarına əsasən qanunauyğunluğu yoxlanıldıqdan sonra vergi ödəyicisinə bu barədə məlumat verilir.

3.6. Vergi Məcəlləsinin 72.5-ci maddəsinə əsasən vergi ödəyicisi tərəfindən dəqiqləşdirilmiş və ya vaxtında təqdim edilməmiş hesabatlar vergi ödəyicisində səyyar vergi yoxlamasının başlandığı günədək təqdim edilə bilər.

**IV. Bəyannamələri, hesabat və arayışları vergi orqanına qanunvericiliklə müəyyən edilmiş müddətlərdə təqdim etməyən vergi ödəyicilərinə xəbərdarlıqların çatdırılması**

4.1. Vergi Məcəlləsinin 70-ci maddəsinə uyğun olaraq xəbərdarlıq fərdi sahibkara, yaxud onun səlahiyyətli nümayəndəsinə, habelə hüquqi şəxsin məsul vəzifəli şəxsinə, yaxud onun səlahiyyətli nümayəndəsinə şəxsən və ya vergi ödəyicisi olan fiziki şəxslə birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə) və ya bildirişli sifarişli poçt vasitəsilə təqdim edilir.

Vergi orqanlarından istifadəçi kodu, parol və şifrə almış vergi ödəyicilərinin elektron kabinetinə Xəbərdarlıqlar elektron formada göndərilə bilər.

4.2. Vergi ödəyicilərinə müəyyən səbəblər (ünvanın dəyişməsi, həmin ünvanda yaşamaması, ünvandan köçməsi və s.) üzündən çatdırılması mümkün olmayan xəbərdarlıqlar poçtdan geri qayıtdıqdan sonra Sənədlərlə iş və vətəndaş müraciətlərinə baxılması şöbəsi (bölməsi) tərəfindən təqdim edilməyən bəyannamələr, hesabatlar və arayışlar ilə məşğul olan struktur şöbəyə (bölməyə) təqdim edilir.

4.3. Geri qayıdan xəbərdarlıqların vergi ödəyicilərinə çatdırılması məqsədilə vergi ödəyicilərinin iş qovluğu və məlumatlarında qeyd olunan nömrələri ilə telefon əlaqəsi saxlanılır və xəbərdarlıqları çatdırılması ilə bağlı vergi ödəyicisi məlumatlandırılır.

4.4. Xəbərdarlıq hüquqi şəxsə təqdim edildikdə sənədlərin qəbulu şöbəsinə və yaxud xəbərdarlığı qəbul etmək səlahiyyəti olan şəxsə verilir.

Səlahiyyətli şəxs Xəbərdarlığı qəbul edəndə onun surətində öz soyadını, adını, atasının adını, tutduğu vəzifəni, sənədi qəbul etdiyi tarixi göstərməli, öz imzası və hüquqi şəxsin möhürü ilə təsdiq etməlidir.

4.5. Xəbərdarlığı almaqdan imtina edildikdə xəbərdarlığın surətində bu barədə lazımi qeydlər edilir. Xəbərdarlığın təqdim edilmə tarixi, vergi orqanının səlahiyyətli nümayəndəsinin soyadı, adı, atasının adı və imzası, həmin faktı təsdiq edən vergi orqanının nümayəndəsi olmayan digər şəxs (müşahidəçi) iştirak edirsə, onun soyadı, adı, atasının adı və imzası olmaqla imtina edilməsi səbəbi göstərilir.

4.6. Xəbərdarlıq fiziki şəxsə, yaxud onun səlahiyyətli nümayəndəsinə və ya ünvan sahibi ilə birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə) təqdim edilərkən Xəbərdarlığı qəbul edən şəxs onun surətində imza etməli, soyadını, adını, atasının adını və Xəbərdarlığın qəbul etmə tarixini qeyd etməlidir.

4.7. Xəbərdarlığın məcburi qaydada fiziki və ya hüquqi şəxsə təqdim edilməsinə, onun alınmasından imtina edildikdə Xəbərdarlığın və onun surətinin hüquqi və ya fiziki şəxsdə qoyulub gedilməsinə, habelə vergi ödəyicisinin qeyri-iş günlərində təqdim edilməsinə yol verilmir.

Xəbərdarlığın alınmasından imtina edildikdə, həmin gün və ya növbəti gün ərzində göndərilmə tarixini əks etdirən bildirişli sifarişli poçt vasitəsi ilə hüquqi və fiziki şəxsə göndərilir.

4.8. Maliyyə institutlarına göndərilən Xəbərdarlıqlar Vergilər Nazirliyinin müvafiq struktur vahidinin baş direktoru tərəfindən imzalanaraq maliyyə institutunun elektron kabinetinə göndərilir.

Kağız formada göndərilən Xəbərdarlıqlar imzalandıqdan sonra Vergilər Nazirliyinin Vergilər Nazirliyinin beynəlxalq vergitutma və vergi monitorinqi sahəsində nəzarəti həyata keçirən struktur vahidi vasitəsi ilə maliyyə institutuna poçtla çatdırılır.

4.9. Vergi Məcəlləsinin 70.2-1-ci maddəsinə əsasən sənədlər (onların surətləri) vergi orqanı tərəfindən vergi ödəyicisinə (onun səlahiyyətli nümayəndəsinə) şəxsən verildikdə – şəxsən verildiyi gün, poçt rabitəsi vasitəsilə vergi ödəyicisi olan hüquqi şəxsin dövlət qeydiyyatı haqqında sənədlərində və ya vergi ödəyicisi olan fiziki şəxsin uçot sənədlərində sonuncu ünvan kimi qeyd olunmuş ünvanına göndərildikdə – poçta təqdim edildiyi gündən 5 iş günü keçdikdən sonra, elektron üsulla elektron kabinetinə göndərildikdə – elektron üsulla göndərildiyi gündən 3 iş günü keçdikdən sonra lazımi qaydada çatdırılmış sayılır.

## V. Bəyannamələri, hesabat və ya arayışları vaxtında təqdim etməmiş vergi ödəyicilərinə maliyyə sanksiyasının və ya inzibati cərimənin tətbiq edilməsi

5.1. Vergi ödəyiciləri tərəfindən bəyannamələr, hesabatlar onların uçotda olduqları vergi orqanına Vergi Məcəlləsində və digər normativ-hüquqi aktlarda nəzərdə tutulan müddətlərdən gec olmayaraq təqdim edilməlidir. Təqdim edilməmiş bəyannamələr, hesabatlar və arayışlara əsasən vergi orqanları tərəfindən Vergi Məcəlləsində nəzərdə tutulmuş tədbirlər görülür. Vergi bəyannaməsini, hesabatları və arayışları əsas olmadan müəyyən edilmiş müddətdən gec təqdim etmiş və ya təqdim etməyən vergi ödəyicisi Vergi Məcəlləsinə müvafiq olaraq məsuliyyət daşıyır.

5.2. Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən vergi hesabatını və ya Məcəllənin 16.2-ci maddəsinə əsasən hesabat dövründə sahibkarlıq fəaliyyəti və ya digər vergi tutulan əməliyyatı olmadığı halda vergi orqanına vergi hesabatının əvəzinə təqdim edilməli olan arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən maliyyə sanksiyası tətbiq edilir.

5.3. Vergi Məcəlləsinin 57.1-1-ci maddəsinə əsasən mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərə və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli ailə üzvlərinə “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin ikinci hissəsinin dördüncü və beşinci abzaslarında nəzərdə tutulan hesabatı və arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən şəxslərə 01.01.2020-ci il tarixindən etibarən vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən maliyyə sanksiyası tətbiq edilir.

5.4. Vergi Məcəlləsinin 60.3.2-ci maddəsinə əsasən həmin Məcəllənin 16.1.11-4-cü maddəsində göstərilən elektron hesabatın müəyyən edilmiş qaydada və müddətdə təqdim edilməməsinə görə maliyyə institutlarına Vergilər Nazirliyinin Nazirliyinin beynəlxalq vergitutma və vergi monitorinqi sahəsində nəzarəti həyata keçirən struktur vahidinin baş direktorunun qərarına əsasən maliyyə sanksiyası tətbiq edilir.

Vergi Məcəlləsinin 57.4-cü maddəsinə əsasən Vergi Məcəlləsinin 16.1.4-cü maddəsində göstərilən arayışı müəyyən edilən müddətdə təqdim etməyən və ya arayışda düzgün olmayan məlumatlar göstərən vergi ödəyicisinə vergi orqanının rəhbərinin (onun müavininin) qərarına əsasən maliyyə sanksiyası tətbiq edilir.

5.5. Təqdim edilməmiş bəyannamələr, hesabatlarlar və arayışlar Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətlərdən sonra 5 gün ərzində təqdim edildikdə həmin gün, 5 gün ərzində təqdim edilmədikdə isə vergi orqanı tərəfindən xəbərdarlıq göndərildiyi gün həmin bəyannamələr, hesabatlar və ya arayışlar AVİS proqram təminatının “Borclar” modulunun **“**Maliyyə  sanksiyası və ya inzibati cərimə tətbiq edilməlilər” ekranında əks olunurlar.

Həmin ekranda əks olunmuş vergi ödəyicilərinin siyahısı vaxtında təqdim edilməyən bəyannamə, hesabat və arayışların alınması  ilə məşğul olan struktur bölmənin (şöbənin) rəhbəri tərəfindən hər gün AVİS-dən alınaraq 2 iş günü ərzində vergi ödəyicilərinin vergi və inzibati məsuliyyətə cəlb edilib-edilməməsi üzrə araşdırmaların aparılması və müvafiq tədbirlərin  görülməsi üçün şöbənin (bölmənin) icraat vərəqəsi üzrə həvalə edilmiş işçiləri arasında bölüşdürülür.

5.6. Bəyannaməni, hesabatı və ya arayışı gecikdirməklə təqdim etmiş vergi ödəyicilərinin məsuliyyət məsələsinə baxılması üçün müvafiq struktur şöbənin (bölmənin)

rəhbəri tərəfindən vergi orqanının (Vergilər Nazirliyinin beynəlxalq vergitutma və vergi monitorinqi sahəsində nəzarəti həyata keçirən struktur vahidinin) rəhbərinin adına xidməti məruzə hazırlanır. Xidməti məruzə Siyahı-məlumat əlavə olunmaqla gün ərzində vergi orqanının (Vergilər Nazirliyinin beynəlxalq vergitutma və vergi monitorinqi sahəsində nəzarəti həyata keçirən struktur vahidinin) rəhbərinə təqdim edilir.

Xidməti məruzədə Siyahı-Məlumata istinad edilməklə vergi bəyannamələri, məcburi dövlət sosial sığortası, işsizlikdən sığorta üzrə hesabatları (və digər hesabatlar) və ya arayışları ilə əlaqədar vergi ödəyicilərinin məsuliyyət məsələsinə baxılması xahiş olunur.

5.7. Vergi orqanının rəhbəri (onun müavini, Vergilər Nazirliyinin beynəlxalq vergitutma və vergi monitorinqi sahəsində nəzarəti həyata keçirən struktur vahidinin rəhbəri) müvafiq struktur şöbənin rəhbərinin təqdim etdiyi xidməti məruzəni və digər aidiyyəti materialları hərtərəfli araşdırdıqdan sonra vergi ödəyicisinin məsuliyyətə cəlb edilib-edilməməsi barədə Qərar (bundan sonra Qərar) qəbul edir.

5.8. Araşdırma təqdim edilməyən bəyannamə, hesabat və arayışlar ilə məşğul olan struktur bölmənin (şöbənin) rəhbərinin və ya vəzifəli şəxsinin, vergi ödəyicisinin və ya onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə, vergi ödəyicisi üzürsüz səbəbdən iştirak etməyəcəyi təqdirdə isə onun iştirakı olmadan aparılır.

5.9. Vergi Məcəlləsinin 74-cü maddəsinə əsasən vergi ödəyicisi təqdim edilmə müddəti uzadılmış bəyannaməni uzadılma müddəti ərzində təqdim etdikdə həmin bəyannamə vaxtından gec təqdim edilmiş bəyannamə kimi qiymətləndirilməməli və vergi ödəyicisi məsuliyyətə cəlb edilməməlidir.

Vergi ödəyicisi təqdim edilmə müddəti uzadılmış bəyannaməni uzadılma müddətindən sonra təqdim etdikdə və ya təqdim edilmədikdə həmin vergi ödəyicisi vergi qanunvericiliyini pozmuş kimi qiymətləndirilməli və onun barəsində məsuliyyət tədbirləri görülməlidir.

5.10. Təqdim edilməmiş vergi bəyannamələrinə, hesabatlara (o cümlədən, məcburi dövlət sosial sığorta hesabat) və arayışlara görə vergi ödəyicilərinin məsuliyyətə cəlb edilməsi barədə Qərar bu Qaydalara Əlavə 5-ə uyğun formada qəbul edilir. Qərarın qeyri-iş günlərində qəbul edilməsinə yol verilmir.

Qərarda vergi və digər qanunvericiliyinin pozulması hallarını özündə əks etdirən faktlar, vergi ödəyicisinin bəyannamənin, hesabatın və ya arayışın təqdim olunmaması və ya gecikdirmə ilə təqdim edilməsi ilə əlaqədar göstərdiyi səbəblər, dəlillər, onların araşdırılması nəticəsində dəlil və səbəblərə qiymət verilməsi, vergi qanunvericiliyinin pozulmasına görə və tətbiq olunan məsuliyyət tədbirlərini nəzərdə tutan müvafiq qanunların maddələri göstərilməklə, vergi ödəyicisinin hansı növ və dövr üzrə bəyannaməni, hesabatı və arayışı təqdim etməməsi və ya vaxtında gec təqdim etməsi, buna görə tətbiq edilən maliyyə

sanksiyasının cəmi məbləği göstərilir və qəbul edilmiş Qərardan Vergi Məcəlləsinin 62.3-cü maddəsində və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada şikayətin verilməsi mümkünlüyü ona izah olunur.

Bununla yanaşı Qərarda vergi ödəyicisindən tətbiq edilmiş maliyyə sanksiyasının məbləğinin dövlət büdcəsinə və qanunla müəyyən edilmiş fondlara ödənilməsi tələb edilir.

5.11. Vergi ödəyicisi müxtəlif tarixlərdə təqdim edilməli olan iki və daha çox bəyannaməni, hesabatı və ya arayışı təqdim etmədikdə və ya eyni vaxtda vergi orqanına (Vergilər Nazirliyinin beynəlxalq vergitutma və vergi monitorinqi sahəsində nəzarəti həyata keçirən struktur vahidinə) müəyyən edilmiş müddətdən gec təqdim edərsə, bu halda vergi ödəyicisinə bir Qərar çıxarmaqla hər bir bəyannaməyə, hesabata və ya arayışa görə maliyyə sanksiyası tətbiq edilməlidir. Həmin Qərarda hər bir bəyannamənin, hesabatın və ya arayışın növü, dövrü və tətbiq edilmiş maliyyə sanksiyasının ümumi məbləği göstərilməlidir.

5.12. Qəbul edilmiş Qərar vergi orqanının rəhbəri (müavini, Vergilər Nazirliyinin beynəlxalq vergitutma və vergi monitorinqi sahəsində nəzarəti həyata keçirən struktur vahidinin rəhbəri) tərəfindən imzalanır və vergi orqanının (Vergilər Nazirliyinin) möhürü ilə möhürlənir. Qərarın bir nüsxəsi vergi ödəyicisinə şəxsən təqdim edilir və ya bildirişli sifarişli poçtla göndərilir.

Vergi orqanlarından istifadəçi kodu, parol və şifrə almış vergi ödəyicilərinin elektron kabinetinə qərarlar elektron formada göndərilə bilər.

Hesabat verilməli maliyyə əməliyyatları barədə məlumatları əks etdirən elektron hesabatın təqdim edilməməsi ilə bağlı qəbul edilmiş Qərar maliyyə institutlarının elektron kabinetinə göndərilir və ya bildirişli sifarişli poçtla təqdim edilir.

5.13. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 461-ci maddəsinə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər çərçivəsində fəaliyyət üzrə vergi hesabatlarının və dövlət rüsumunun tutulması, həmin Məcəllənin 477-1-ci maddəsinə əsasən işsizlikdən sığorta haqqı barədə hesabatların Vergilər Nazirliyinə müəyyən edilmiş müddətdə təqdim edilməməsinə görə inzibati cərimə tətbiq edilir.

Bununla yanaşı şəxs barəsində inzibati cərimə tətbiq edilərkən İnzibati Xətalar Məcəlləsinin 34.1-ci maddəsi nəzərə alınmalıdır.

5.14. Xüsusi vergi rejimi ilə fəaliyyət göstərən və dövlət rüsumu, o cümlədən işsizlikdən sığorta haqqı barədə hesabatları təqdim etməli olan şəxslər hesabatı (arayışı) əsas olmadan müəyyən edilmiş müddətdə təqdim etmədikdə onlara vergi orqanının rəhbəri (onun müavini) tərəfindən Azərbaycan Respublikasının “İnzibati Xətalar Məcəlləsi”nin 101-ci, 461-ci və

477-1- ci maddələrinin tələbləri əsas götürülməklə “İnzibati xəta haqqında” Protokol tərtib edilir.

5.15. Hesabat vaxtında təqdim edilmədikdə, inzibati xəta haqqında protokol inzibati xətanın törədilməsi faktı aşkar edildikdən dərhal sonra tərtib edilir. İşin hallarının, eləcə də barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin şəxsiyyətinin əlavə aydınlaşdırılması tələb olunduğu hallarda, inzibati xəta haqqında protokol inzibati xətanın aşkar edildiyi vaxtdan iki gün müddətində tərtib edilir. Protokol tərtib olunduqdan ən geci 15 gün ərzində vergi orqanının rəhbəri (müavini) tərəfindən şəxsin inzibati məsuliyyət məsələsi haqqında Qərar qəbul edilməlidir.

“İnzibati xəta haqqında Protokol” və “İnzibati tənbeh vermə haqqında Qərar” formaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 noyabr 2016-cı il tarixli 466 nömrəli qərarı ilə təsdiq edilmişdir.

5.16. Qəbul edilmiş Qərarın surəti 3 gün müddətində barəsində Qərar qəbul edilmiş vəzifəli şəxsin və ya hüquqi şəxsin özünə və ya səlahiyyətli nümayəndəsinə təqdim edilir və ya bildirişli sifarişli poçtla göndərilir.

5.17. Vergi Məcəlləsinin 54 və ya 55-ci maddələrində müəyyən edilən hallar mövcud olduqda vergi orqanının rəhbəri (müavini) tərəfindən hesabatın müəyyən edilmiş müddətdə verilməməsinə görə vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsindən imtina olunması barədə Qaydalara Əlavə 6-də göstərilən formada Qərar qəbul edilir.

5.18. Vergi orqanının öz təşəbbüsü və ya vergi ödəyicisinin müraciəti əsasında “Bəyannamə, hesabat və arayışların müəyyən olunmuş müddətdə verilməməsinə görə vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsi barədə qərarlar”a yenidən baxılarkən inzibati aktın ləğv edilməsinə zərurət yarandıqda, tətbiq olunmuş maliyyə sanksiyasının ləğv edilməsi barədə qərar qəbul edilməsi üçün təqdim edilməyən bəyannamələr, hesabatlar və arayışlar ilə məşğul olan müvafiq struktur şöbənin (bölmənin) rəhbəri tərəfindən maliyyə sanksiyasının tətbiq etmiş vergi orqanının rəhbərinə xidməti məruzə hazırlanır.

5.19. Qeyd edilən xidməti məruzəyə dərkənar verildikdə tətbiq olunmuş maliyyə sanksiyasının ləğv edilməsi barədə bu Qaydalara Əlavə 7-də göstərilən formada Qərar qəbul edilir.

Həmin qərarın icrası məqsədilə müvafiq AVİS-də müvafiq tədbirlərin görülməsi təmin edilməlidir.

5.20. İnzibati Xətalar Məcəlləsinin 53-cü maddəsində nəzərdə tutulan hallar üzrə inzibati xəta haqqında iş üzrə icraata xitam üçün əsas yarandıqda vergi orqanının rəhbəri (onun müavini) inzibati xəta haqqında iş üzrə icraata xitam barədə Qərar qəbul edir.

5.21. İnzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında qərar forması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 noyabr 2016-cı il tarixli 466 nömrəli qərarı ilə təsdiq edilmişdir.

5.22. İnzibati cərimənin tətbiq edilməsi haqqında inzibati xəta barədə iş üzrə qərardan verilmiş şikayətə İnzibati Xətalar Məcəlləsinin 17-ci fəslinə uyğun olaraq baxılır. İnzibati cərimənin ləğvi üçün əsas olduqda İnzibati Xətalar Məcəlləsinin 134-135-ci maddələrinə müvafiq olaraq qərar qəbul olunur və qərarın icrası məqsədilə AVİS-də "İnzibati cərimənin ləğv edilməsi" menyusu vasitəsilə tətbiq edilmiş inzibati cərimənin ləğv edilməsi həyata keçirilir.

İnzibati xəta haqqında iş üzrə qərardan verilən şikayətə baxılma haqqında Qərar İnzibati Xətalar Məcəlləsinin müddəaları nəzərə alınmaqla qəbul edilir.

5.23. Qəbul edilmiş qərarlar əsasında maliyyə sanksiyası və ya inzibati cərimə məbləğlərinin vergi ödəyicisinin şəxsi vərəqəsinə işlənilməsi və ya şəxsi vərəqəsindən silinməsi (ləğvi) vergi orqanının rəhbəri (müavini) tərəfindən müvafiq Qərarlar imzalandıqda AVİS proqramı vasitəsilə avtomatik olaraq həyata keçirilir.

5.24. Vergi bəyannaməsini, məcburi dövlət sosial sığortası, işsizlikdən sığorta üzrə hesabatları (və digər hesabat və arayışları) gecikdirmə ilə təqdim etmiş vergi ödəyiciləri barəsində maliyyə sanksiyası və ya inzibati cərimələrin tətbiqi barədə qəbul edilmiş Qərarların uçotu AVİS-də aparılır.

## VI. Maliyyə sanksiyası və ya inzibati cərimə ilə bağlı qəbul edilmiş qərarların vergi ödəyicilərinə çatdırılması.

6.1. Vergi bəyannamələrini, hesabatları və ya arayışları qanunvericiliklə müəyyən edilmiş müddətdə təqdim etməyən vergi ödəyicilərinin məsuliyyət məsələsi ilə əlaqədar qəbul edilmiş qərarların (maliyyə sanksiyasının tətbiqi və ləğv edilməsi barədə qəbul edilmiş qərarlar) bir nüsxəsi fərdi sahibkara, yaxud onun səlahiyyətli nümayəndəsinə və ya ünvan sahibi ilə birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə), habelə hüquqi şəxsin məsul vəzifəli şəxsinə, yaxud onun səlahiyyətli nümayəndəsinə bu Qaydaların 4-cü hissəsində nəzərdə tutulan formada təqdim edilərək çatdırılmalıdır.

6.2. İnzibati xətalar haqqında işlər üzrə sənədlərin rəsmi qaydada verilməsi İnzibati xətalar Məcəlləsinin 57-ci maddəsinə əsasən tənzimlənir.

Həmin Məcəllənin 57.1-ci maddəsində müəyyən edilmişdir ki, inzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçılarına bu Məcəllədə müəyyən edilmiş hallarda inzibati xətalar haqqında işlər üzrə sənədlər (qərarlar, qərardadlar, protokollar) səlahiyyətli orqan (vəzifəli

şəxs) tərəfindən “Poçt haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi ilə çatdırılır, yaxud səlahiyyətli vəzifəli şəxs tərəfindən şəxsən verilir. Sifarişli poçt göndərişi - göndərilmək üçün qəbul olunduğuna dair istifadəçiyə qəbz verilməsi, çatdırılarkən isə ünvan sahibinin müvafiq sənədi imzalaması tələb olunan poçt göndərişidir.

6.3.İnzibati Xətalar Məcəlləsinin 57.5.1-ci, 57.5.2-ci, 57.5.2.1-ci və 57.5.2.2-ci maddələrinə əsasən müəyyən edilmiş hallarda inzibati xəta haqqında iş üzrə sənəd rəsmi qaydada verilmiş hesab edilir.

***